HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

*15 yanvar 2017-cı il*
*№001 (39)*

*yeni_yol@mail.ru* / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / *qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur*

## GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ TÜRKİYƏ PREZİDENTİ İLƏ GÖRÜŞÜB



Gürcüstanın xarici işlər naziri Mixail Canelidze Ankaraya rəsmi səfəri çərçivəsində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb.

Gürcüstan XİN-in məlumatına görə, görüşdə tərəflər iki ölkə arasında mövcud olan dostluq və strateji münasibətlərin qənaətbəxş olmasını qeyd ediblər. Regional nəqliyyat və energetika layihələrinə və tərəflərin onların gerçəkləşdirilməsi prosesindəki fəal əməkdaşlığının gərəkliliyinə xüsusi diqqət yetirilib.

Yüksək səviyyəli səfərlərin dinamikasını qorumağın və gələcəkdə onları daha da canlandırmağın vacibliyi vurğulanıb. Mədəniyyət sahəsində əməkdaşlığa və xalqar arasında əlaqələrə yardım etməyin gərəkliliyi də qeyd olunub.

Görüşdə Mixail Canelidze son zamanlar Türkiyədə baş vermiş terror aktlarını qınayaraq, Türkiyə hökumətini və xalqını dəstəklədiyini və həmrəy olduğunu ifadə edib.

Türkiyə prezidenti isə öz növbəsində Ankaranın bir daha Gürcüstanın ərazi bütövlüyünə və suverenliyinə möhkəm surətdə tərəfdar olduğunu təsdiqləyib.

Görüşdə Gürcüstanın XİN-in başçısı Türkiyə tərəfinə Avropaya və NATO-ya inteqrasiya yolunda Gürcüstanı müdafiə etdiyinə görə minnətdarlığını bildirib.

## TÜRKİYƏ GÜRCÜSTANIN NATO-YA ÜZVLÜYÜNƏ TƏRƏFDARDIR



Ankarada Türkiyənin və Gürcüstanın XİN başçıları – Mövlud Çavuşoğlu və Mixail Canelidzenin görüşü olub.

Görüşün sonunda Türkiyə diplomatiyasının başçısı bəyan edib ki, onun ölkəsi Gürcüstanın NATO-ya daxil olması prosesini tam şəkildə dəstəkləyir.

“Biz habelə Avropa İttifaqı və Gürcüstan arasında viza rejiminin sadələşdirilməsinə dair razılaşmanın tezliklə gerçəkləşdirilməsinə də tərəfdarıq” – Mövlud Çavuşoğlu vurğulayıb. O, həmçininTürkiyənin Gürcüstanın ərazi bütövlüyünə tərəfdar olduğunu da qeyd edib.

Türkiyə XİN-nin başçısı 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmiryolunun açılışının gözlənildiyinə də diqqət çəkib.

Öz növbəsində Gürcüstanın XİN-nin başçısı Mixail Canelidze Türkiyədə olmasından məmnun qaldığını ifadə edib.

## PREZİDENT MALİYYƏ MƏSƏLƏLƏRİNƏ DAİR QANUN LAYİHƏSİNİ İMZALAYIB



Prezident Georgi Marqvelaşvili onlayn kreditlərə, mikromaliyyə təşkilatlarına və banklara münasibətdə yeni tənzimləmələrə aid olan qanunvericilik layihəsini imzalayıb. Bu barədə prezidentin iqtisadi məsələlər üzrə məsləhətçisi Maya Mikeladze məlumat verib.

“Biz bu qanun layihələrini ətraflı şəkildə nəzərdən keçirmişik, burada ilk növbədə larilaşdırma siyasətinə, onlayn kreditlərin məhdudlaşdırılmasına, mikromaliyyə təşkilatları ilə, eləcə də kommersiya bankları ilə bağlı olan Vətəndaş Məcəlləsinə daxil edilmiş dəyişikliklərə toxunulur. Biz bu qanun layihələrini ətraflı müzakirə edib, müəyyən fikirlər formalaşdırmışıq. Bizim maliyyə sektorunun və Gürcüstan Milli Bankının nümayəndələri ilə olduqca fəal əlaqələrimiz yaranıb. Biz bütün tərəflərin fikirlərini dinləyib, Milli Bankla razılığa gəmişik ki, bu qanun layihəsini müşayiət edən texniki xarakterli çatışmazlıqların hamısı Milli Bank tərəfindən aradan qaldırılacaq. Biz bu prosesləri diqqətlə izləyəcəyik” – Maya Mikeladze vurğulayıb.

## GÜRCÜSTANIN BAŞ NAZİRİ QƏRBİ GÜRCÜSTANDA YENİ HAVA LİMANININ AÇILIŞINI EDİB



Yanvarın 14-də Ambrolauri şəhərində yeni aeroport işə salınıb. Gürcüstan hökumətinin mətbuat xidmətinin məlumatına görə, yerli vaxtla saat 16:00-da yeni aeroporta ilk təyyarə enib, onun ilk sərnişini isə Gürcüstanın Baş Naziri Georgi Kvirikaşvili olub.

İlk mərhələdə Ambrolauri aeroportu yalnız 15-20 yerlik təyyarələr qəbul edəcək. Aeroportun eniş-uçuş zolağının uzunluğu 1100 metrdir, onun terminalı isə eyni vaxtda yalnız 50-dək sərnişini buraxmaq qabiliyyətinə malikdir.

Xəbərdə bildirilir ki, gələcəkdə aeroportun imkanları genişləndiriləcək, onun terminalının sahəsi böyüdüləcək və o, daha böyük təyyarələri qəbul edə biləcək. Yeni aeroport çox qısa müddətdə, cəmi bir neçə ayda inşa olunub.

Onun tikilməsi təşəbbüsü Georgi Kvirikaşviliyə məxsusdur.

Dördbəndlik islahat planına əsasən digər regionlarda da yeni aeroportların tikilməsi nəzərdə tutulur.

## GÜRCÜSTAN DÜNYANIN ƏN TƏHLÜKƏSİZ ÖLKƏLƏRİ ARASINDA 32-CİDİR

Beynəlxalq İqtisadi Forum dünyanın ən təhlükəsiz ölkələrinin adını açıqlayıb.

141 ölkənin yer aldığı reytinqdə Gürcüstan 32-cı pillədə qərarlaşıb. Dünyanın ən təhlükəsiz ölkəsi isə Finlandiya seçilib. Qətər 2-ci, Birləşmiş Ərəb Əmirlikləri 3-cü, İslandiya 4-cü və Avstriya 5-ci pillədə qərarlaşıb.

İlk onluqda Lüksemburq (6), Yeni Zelandiya (7), Sinqapur (8), Oman (9) və Portuqaliya (10) da yer alıb. Rusiya Beynəlxalq İqtisadi Forumun siyahısında 126-cı yerdə qərar tutub. Sonuncu yeri isə Suriya, Çad və Nigeriya bölüşdürüb.

Reytinqdə Azərbaycan 36-cı pillədə yer alıb.

Reytinq tərtib olunan zaman ölkələrdə cinayətkarlıq faizi, terror təhlükəsi və hüquq-mühafizə orqanları ilə vətəndaşların münasibətləri əsas götürülüb.

2 KÖHNƏ İLƏ SÖZARDI VƏ YA YENİ İLƏ SÖZÜNÜ
DİNİN İNSAN HƏYATINDAKI YERİ 3
4 ABŞ-DA SƏS-KÜYLÜ PREZİDENTLİK DÖNƏMİ BAŞLAYIR
EPİKÜR BAĞLARI (vegetasiya) 5
6 LİBERAL DƏYƏRLƏRƏ DAİR DÜŞÜNCƏLƏR
TEATRIMIZIN ÜMİDLƏRİ BIR DAHA PUÇ OLDU 7



# KÖHNƏ İLƏ SÖZARDI VƏ YA YENİ İLƏ SÖZÜNÜ

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

**Deyirəm bizim bu əcaib işlərimizdən heç olmaz. Gündüz əli çıraqlı düşüb bütün dünyanı gəzib, dolaşsaq da tayımız-bərabərimiz tapılmaz. Elə kəsəsi, niyəsini də deyim. Miladi təqvimlə köhnə ili, yəni 2016-cı ili arxada qoyduqmu? Qoyduq. 2017-ci ilə daxil olduqmu? Olduq. Siz tərəfləri bilmirəm, bizim məhəllədə Yeni il gecəsi bir vur-çatlasın qopmuşdu ki, gəl, görəsən. Bir atəşfəşanlıq idi ki, aşıqlar demiş, rüzgarın gözü beləsini görməmişdi. Heç bu atəşfəşanlığı icad edən Çin əhli də bizimlə bəhsə girə bilməzdi. Parta-partdan qulaq tutulurdu. Təbiri caizsə deyim, ara qarışıb, məzhəb elə itmişdi ki, it yiyəsini tanımırdı. İt demiş, həmişə az qala adamın gözünə girən it-pişik də bu səsdən-küydən ilim-ilim itmişdi. Qışqırtı, hay-haray göylərə bülənd olmuşdu. Adam bütün bunlara canını dişi ilə sıxıb dözə bilər. Və hələ üstəgəl, öz-özünə təssəli də verər ki, uşaq-muşaq qoy ildə bir dəfə kef eləsin. Amma bizim kefimizin də gərək bir "əmması" ola. Bizim uşağımız da, elə böyüyümüz də şitlik eləməsə olmaz. Kiminsə cibinə, üstünə, qəfildən özünün, atının ayağının altına, nə bilim daha harasına bir "partdağan" atmasa, daha biz nəyə layiqik? Kimisə səksəndirməsək, kimisə diksindirməsək, kimisə dəli-dəngəsər eləməsək biz də, biz olmarıq. Bizi fərqləndirən elə bu keyfiyyətlərimiz deyilmi?**

Bir onu demək istəyirəm ki, Yeni İl ərəfəsində bu pirotexnika adlanan zəhrimardan paytaxt Tbilisidə 54 nəfərin zərər çəkdiyi bildirilir. Bunlar rəsmi qaydada təcili yardıma müraciət edənlərin statistikasıdır. Onlardan da ikisinin barmağı kəsilib. Yaddaş üçün deyim ki, 414 nəfər alkaqoldan, 62 nəfərsə qida zəhərlənməsindən xəstəxanalıq olub. Deyəsən, biz heç düzgün qidalanmağı da öyrənməmişik? Bu qəhətlikdə hər yarağımız bitmişdi, qalmışdı bir saqqal darağımız, onu da özümüz öz əlimizlə yaratdıq. Digər şəhərlərimizdə, kəndlərimizdə olan olayları da bunun üzərinə əlavə etsək əməlli-başlı müharibədən çıxmış bir toplum təsəvvürü yarada bilərik.

Bilirəm indi ağzıgöyçəyin biri deyir ki, nə olsun, burada qınanılası nə var, oğul-uşaq bir qırıq sevinir, onu da qadağan etdirməyəcəksən ha? Amma mənim demək istədiyim bir ayrı zaddır. İndi tutaq ki, ölkəmizdə bir milyon ailə yaşayır, hər ailə də, çox demirəm, 10 lari dəyərində pirotexnika alıb atəşfəşanlıq yapır. İlk baxışda bu cüzi bir məbləğ kimi görünsə də, üst-üstə qoyunca on milyonla ifadə olununan bir yatıra çevirlir axı? Bu da heç, biz insanlarımızın haqqını, hüququnu tapdalamaq fikrindən çox uzağıq. Amma bircə məsələni yanaraq söyləmədən keçə bilməyəcəm: bankların əsirinə-köləsinə çevrilmiş insanların pulunu havaya sovurmasına nə ad vermək olar, bunu özünüz deyin? Biz bununla 2016-cı ilə rədd ol başımızdanmı demək istəyirik? Və ya onun bir yerinə təpik vurub, səndən canımızı qurtardıqmı demək niyyətindəyik? Bax, mənim soruşmaq istədiyim bu idi. Bir cavabınız olsa, mənə də bildirin. Hə, 2017-ci ilin Şərq təqvimi ilə qırmızı xoruz ili olmasını az qala unutmuşdum. Heç olmasa 2017-ci ili elə yaşayaq ki, el ağzında deyildiyi kimi, bizi xoruza yükləməsin, yəni daha da yoxsullaşıb, sonra da kasıblıqdan şikayət edərək, ahu-zar qılmayaq.

Deyirəm, söz ilin köhnəsindən, təzəsindən düşmüşkən, bir-iki kəlmə də 2017-dən danışım. Yeni ilin ilk günündən bizi gözləyən sürprizlərdən çoxlarının xəbəri var. Qiymətlərdə gedən artımdan xəbərsiz olmadığınızı, milli pulumuzun ölümzülüm dirəniş göstərməsini dükan-bazara girib-çıxanda görmənizi də unutmuram. Elə qiymət artımının da bununla bağlı, yəni larinin xilasına yönəli bir siyasət olduğunu xatırlatmaq istəyirəm. Avtomobillərə əmlak vergisi tətbiq olunur, neft məhsulları bahalanır, tütün məmulatlarının aksiz vergiləri artırılır, oyun biznesindən alınan vergilərin həcmində də artım nəzərdə tutulur.. Bunların içərisində tütün məmulatlarının qiymətlərinin artırılması və oyun biznesindən alınacaq vergilərin yüksəldilməsini alqışlamaq da olar. Hətta gecə-gündüz tütünə aludə olanlar da, ola bilsin ki, bu qiymət artımına etiraz etməzlər. Nədən ki, bu qəbildən olan məhsulların hər dəfə qiyməti artırılanda siqaret çəkənlərin sayında azalma müşahidə edildiyi açıq-aşkar bir haldır. Üstəgəl, tütündən istifadənin hər il dünya iqtisadiyyatına bir trilyon dollara başa gəlməsini də unutmaq olmaz. Və belə fantastik rəqəmlə ifadə olunan tütünün bahalaşmasını birmənalı şəkildə alqışlamaq gərəkdir. Elə oyun biznesindən büdcəyə daxil ediləcək hər artıq lari də bizim xeyrimizədir. Amma, fikrimcə, bunu neft məhsullarının qaldırılması haqqında söyləyə bilməyəcəm. O üzdən ki, bu məhsulların qiymətinin qalıxması ilə gec-tez digər malların bahalaşmayacağına heç kim zəmanət verə bilməz. Sıravi vətəndaşlarımız bunu həyat təcrübələrindən daha yaxşı bilməlidirlər.

Köhnə illə yeni ilin qovşağında baş verənlərlə və baş verəcəklərlə ilgili mənim düşündüklərim bu qədər. Özünüzdən muğayət olun. Qara qışın da ömrünə bir şey qalmayıb. Mən artıq yazın ayaq səslərini eşidirəm. Siz necə?!.

# URMİYA UNİVERSİTETİNDƏ AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATININ TƏDRİSİNƏ İCAZƏ VERİLİB

Urmiya Universitetində Azərbaycan dili və ədəbiyyatı fənninin tədrisi üçün müvafiq icazə alınıb.

APA-nın Tehran bürosunun məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Urmiya Universitetinin rektoru Rəhim Hubnəqi bildirib.

R.Hubnəqi deyib ki, gələn semestrdən universitetdə Azərbaycan dili və ədəbiyyat fənni üzrə 2 dərs tədris olunacaq. Azərbaycan dili dərsində iştirak könüllü olacaq.

Qeyd edək ki, Urmiya Universitetində 16 min 826 tələbə təhsil alır. Bu universitetdə müxtəlif sahələr üzrə 87 fənn üzrə dərslər keçirilir. Universitetin 487-dən çox müəllim-professor heyəti var.

Xatırladaq ki, 5 ay öncə İran Təhsil və Qiymətləndirmə Təşkilatı ilk dəfə olaraq 2016-2017-ci tədris ilində universitetlərin qəbul imtahan proqramına Azərbaycan dili və ədəbiyyatı fənnini də əlavə edib. Humanitar fənlər üzrə tələbə qız və oğlanların



2016-2017-ci tədris ilində Azərbaycan dili fənni üzrə də təhsil ala biləcəkləri açıqlanıb. Azərbaycan dili və ədəbiyyatı fənni universitetlərdə bakalavr pilləsi üzrə tədris olunacaq.

İran Konstitusiyası 15 və 19-cu maddələrində ana dilində tədris məsələsini nəzərdə tutur. Lakin bu iki maddə uzun illərdir ki, icra olunmayıb. Prezident Həsən Ruhaninin rəhbərlik etdiyi hökuməti bu maddələrin icrasına başlayıb.

# MƏKTƏB TƏHSİLİ OLMAYAN YAŞLILAR DA MƏKTƏBƏ QAYIDA BİLƏRLƏR

Gürcüstanın Təhsil və Elm naziri Aleksandr Cecelava "Təhsil almaq üçün ikinci imkan" proqramının təqdimatını keçirib.

Aleksandr Cecelavanın sözlərinə görə, proqramın məqsədi yaşından asılı olmayaraq bütün Gürcüstan vətəndaşlarının məcburi ümumi təhsil almasına yardım etməkdir.

"Bu gün biz xoş hadisə barədə elan veririk. Bu, təhsil almaq üçün yeni şansdır. Söhbət müxtəlif səbəblərdən məktəb təhsili ala bilməyən vətəndaşlardan gedir. Biz belə adamları məktəbə qaytaracaq sistem yaradırıq. Artıq 80 uşaq tapıb, onları müəssisələrdə yerləşdirmişik, bundan sonra onlar məktəbdə təhsillərini davam etdirəcəklər. Söhbət müxtəlif səbəblərdən keçmişdə məktəb təhsili ala bilməyən yaşlı adamlar haqqındadır. Bu, Avropaya, peşəkar və şəxsi azadlığa doğru daha bir addımdır, hökumətimizin dördbəndlik planının əsaslı prinsiplərindən biridir" – təhsil və elm naziri qeyd edib.

# GÜRCÜSTAN BÖYÜK BRİTANİYAYA YUN İXRACINA BAŞLADI



"Kartuli matkli" (Gürcü yunu") şirkəti Böyük Britaniyaya ilk dəfə qoyun yunu ixracına başlayıb. Yun Gürcüstandan Avropa bazarına çıxan ilk heyvan mənşəli məhsuldur.

Şirkətin təsisçisi Zaur Quliyev bildirib ki, İngiltərənin Curtis wool direct limited şirkətinə nümunə olaraq 22 ton yun göndərilib.

Zaur Quliyev hər ay İngiltərəyə 100-200 ton yun göndərməyi planlaşdırdıqlarını vurğulayıb. O, deyib ki, tərəfdaş şirkət yunun 1 kiloqramını 0,9 – 1 dollara almağa hazırdır. "Kartuli matkli"nin rəhbəri qeyd edib ki, gürcü yunu qabadır və buna görə də onun dəyəri Avropa yunu ilə müqayisədə 40% ucuzdur. Şirkət gürcü fermerlərindən yunun kiloqramını 50 tetriyə alır.

"Kartuli matkli" bir qədər əvvəl Tbilisi yaxınlığındakı Lilo qəsəbəsində sahə alaraq, əcnəbi donorların yardımı ilə anbar inşa edib və müasir istehsal pressini təmir edib.

Qeyd etmək lazımdır ki, Gürcüstandan Avropa İttifaqına və Böyük Britaniyaya yun ixracına Gürcüstan Milli Ərzaq Agentliyinin qanunvericiliyi yaxınlaşdırmaq və standartları təmin etmək üçün bir çox tədbirlər həyata keçirməsindən sonra icazə verilmişdir.

Bundan sonra Avropa İttifaqı Gürcüstanın dövlət nəzarət sistemini müsbət qiymətləndirmiş və Gürcüstanı üçüncü ölkələr qrupuna, yəni Avropa İttifaqı ərazisinə mal ixrac edə bilən ölkələrin siyahısına daxil etmişdir.

# TBİLİSİDƏ PİROTEXNİKADAN 50-DƏN ÇOX ADAM ZƏRƏR ÇƏKİB

Yeni ilin ilk günlərində Tbilisidə pirotexniki partlayışlar nəticəsində 54 nəfər zərər görüb, onlardan da ikisinin əl barmaqları amputasiya olunub. Bu barədə Tbilisinin təxirəsalınmaz təcili yardım mərkəzindən bildiriblər.

Söhbət 31 dekabr gecəsi saat 22-dən 3 yanvar səhər saat 10-dək olan təcili yardım çağrışlarından gedir.

Mərkəzdə qeyd ediblər: "İki pasiyentin əl barmaqları amputasiya olunub, onlar yetkin adamlardır, xəstəxanaya yerləşdiriliblər. Qalan hallarda həkimlər yanıqları müalicə etməli olublar".

Təcili yardımın tez-tez çağrılmasının əsas səbəblərindən biri də alkoqol intoksikasiyası olub. Yeni ilin ilk günlərində 414 belə hal müşahidə olunub və 116 nəfər bu səbəbdən xəstəxanaya yerləşdirilib.

Qida zəhərlənməsindən isə 62 nəfər zərər görüb. Onlardan da 23-ü xəstaxanaya yerləşdirilib.

Mərkəzdə bu məlumatların yeni ilin ilk günlərində baş vermiş bədbəxt hadisələrin tam statistikası hesab etmirlər.

## GÜRCÜSTAN YAŞAYIŞ ÜÇÜN ƏN UCUZ ÖLKƏLƏRİN SİYAHISINA DÜŞÜB

Gürcüstan dünyanın ayrı-ayrı ölkələrində yaşayışın qiyməti illik reytinqində 116-cı pilləni tutub. Reytinqi beynəlxalq informasiya portalı Numbeo tərtib edib.

Tədqiqatda 122 ölkədəki vəziyyət araşdırılıb. Yaşayış üçün ən əlverişli ölkələrin onluğuna Hindistan (122-ci yer), Moldova (121-ci yer), Pakistan (120-ci yer), Qazaxıstan (119-cu yer), Nepal (118-ci yer), Ukrayna (117-ci yer), Gürcüstan (116-cı yer), Əlcəzair (115-ci yer), Azərbaycan (114-cü yer) və Kolumbiya (113-cü yer) daxil edilib.

Krisha.kz portalının məlumatına görə, bu reytinqdə dövlətlər bir sıra parametrlər, o cümlədən də mənzil kirayəsi, ərzaq və xidmətlərin qiyməti, habelə ictimai nəqliyyatda gediş haqqı üzrə müqayisə ediliblər.

Reytinqə əsasən, yaşayış üçün ən bahalı yer Bermud adalarıdır. Yaşayış üçün ən bahalı yerlərin onluğuna Bermud adalarından başqa İsveçrə, Baham adaları, Norveç, İslandiya, Danimarka, Sinqapur, Lüksemburq, Küveyt və Honkonq da daxildir.

## YANVARIN 1-DƏN GƏLİR VERGİSİNİN ESTON MODELİ FƏALİYYƏT GÖSTƏRİR

2017-ci il yanvarın 1-dən vergi sahəsində bir neçə mühüm təşəbbüs qüvvəyə minib. Yeni ilin ilk günündən eston modeli adlandırılan gəlir vergisi tətbiq olunur. Bu vergi şirkətə/istehsala gəlirin bölüşdürüldüyü halda tətbiq olunur və əgər gəlir tam şəkildə yenidən reinvestisiya olunursa, o, vergidən azad edilir.

Bundan başqa yanvarın 1-dən tütün məmulatları, neft məhsulları və minik avtomobillərinin aksiz vergiləri, habelə oyun biznesində vergilərin həcmi artırılır.

Parlamentin maliyyə-büdcə komitəsinin sədri İrakli Kovzanadze bəyan edib: "Yanvarın 1-dən "eston modeli" qüvvəyə minir. Bu, daha yaxşı investisiya mühiti yaratmağa imkan verən vaxtı uzadılmış gəlir vergisidir. Bu, bizə biznes üçün əlavə yarım milyard dollar saxlamağa imkan verir. Bu məbləğ biznesə səfərbər olunacaq. O, daxili sərmayələşdirmə üçün istifadə oluna bilər, ondan əcnəbi sərmayədarlar istifadə edə bilərlər. Bu, nadir modeldir, ondan regionda ilk dəfə biz istifadə edirik".

## GÜRCÜSTAN DİN MİSİLSİZ LAYİHƏYƏ BAŞLAYIR

Gürcüstanın daxili işlər nazirliyi misli görünməmiş layihəyə başlayıb. Ən yaxşı Qərb standartlarına uyğun olaraq yeni struktur bölməsi – Birgə Əməliyyat Mərkəzi yaradılıb. Mərkəz DİN-nin bütün struktur vahidlərini birləşdirən mərkəzləşdirilmiş müasir texnoloji vasitələrlə təchiz olunub.



"Bu 21-ci əsrin polisidir. Bu cür mərkəz yalnız bir neçə inkişaf etmiş ölkədə var və o, cinayətin önlənməsi, aşkarlanması və aradan qaldırılması işində ən müasir yanaşmadır. Lakin bizim yaratdığımız mərkəzin tam analoqu heç bir ölkədə yoxdur. O, özünün multifunksionallığı ilə nadirdir və bir neçə müxtəlif istiqaməti əhatə edir" – "Arsenali" jurnalı ilə söhbətində daxili işlər naziri Georgi Mqebrişvili bəyan edib.

Onun sözlərinə görə, bu yenilik real vaxt ərzində cinayətə tez reaksiya verməyə və həmin cinayətin qarşısını almağa, əhali arasında müdafiə və təhlükəsizliyin səviyyəsini artırmağa, polisin fəaliyyətinin və istintaqın keyfiyyətinin effektivliyini yüksəltməyə imkan verəcək.

## GÜRCÜSTAN TURİZMDƏN 2 MİLYARD DOLLAR GƏLİR GÖZLƏYİR

Gürcüstanda beynəlxalq turizmdən gələn gəlirlər artmaqdadır. Hökumətin təxminlərinə görə, 2016-cı ilin son göstəriciləri 2 milyard dollardan artıq olmalıdır.

2016-cı ilin üç kvartalının göstəricilərinə görə, xarici turizmdən əldə olunan qazanc 1,7 milyard dollar təşkil edib və bu göstərici bir il ərzində 11,7% və ya 177 milyon dollar artıb.

Milli Turizm Agentliyinin rəhbəri Georgi Çoqovadze bildirib: "2016-cı ilin son məlumatlarına görə, turizmdən gələn gəlir 2 milyard ABŞ dollarını ötüb keçəcək".

Onun sözlərinə görə, 2016-cı ilin üç kvartalının məlumatlarına əsasən ÜDM-da turizmin payı 7,3% təşkil edib, ötən ilin analoji dövrü ilə müqayisədə artım 10,5% olub.

"2016-cı ilin on bir ayının məlumatlarına görə, beynəlxalq səyahətçilərin əcnəbi ödəniş kartları ilə həyata keçirdikləri əməliyyatlar 1 479 633 lari təşkil edib, bu da keçən ilin müvafiq dövrünün göstəricilərilə müqayisədə 10,1% çoxdur" – Georgi Çoqovadze vurğulayıb.

## "TRUMP-TOWER" YAŞAYIŞ KOMPLEKSİ TRAMPSIZ İNŞA OLUNACAQ




Batumidəki "Trump-Tower" yaşayış kompleksinin inşası ABŞ prezidenti seçilmiş Donald Trampın The Trump Organization şirkətinin iştirakı olmadan həyata keçiriləcək.

KİV-in yaydığı məlumata görə, The Trump Organization şirkəti layihədən çıxması barədə bəyan edib.

Gürcüstanın Silk Road şirkətinin və The Trump Organizationun birgə bəyanatında dəyəri 250 milyon dollar qiymətləndirilən 47 mərtəbəli yaşayış qülləsinin tikintisinin The Trump Organization şirkətinin iştirakı olmadan davam etdiriləcəyi vurğulanıb.

Xatırladaq ki, bundan başqa bir qədər əvvəl Trampın Braziliya və Azərbaycanda da inşaat layihələrində iştirakdan imtina etməsi haqqında məlumatlar yayılmışdı.

Trampın biznes imperiyası ətrafında onun prezident seçilməsindən sonra mübahisələr yaranıb. Tənqidçilər Tramp üçün prezident postunda istənilən biznes idarəetməsinin maraqlar münaqişəsi yaradacağını bəyan edirlər.

## DİNİN İNSAN HƏYATINDAKI YERİ



Hacı BƏKİROĞLU
*hacibakir@mail.ru*

**İnsanın və cəmiyyətin mənəvi həyatının təməlini meydana gətirərək psixoloji və ictimai həyata əhəmiyyətli təsirlər göstərən din, danılması mümkün olmayan bir faktdır. Tarix, din-insan və cəmiyyət əlaqələrinin qalıqlarını və sənədlərini bizlərə təqdim edir. Din faktı insanlığın tarixində həmişə var olmuş, cəmiyyətlərin təşəkkülündə və dəyişməsində əhəmiyyətli təsir göstərmişdir. Dinə ideoloji baxımdan yaxınlaşaraq onu süni və gərəksiz bir şey kimi qəbul etmək onun gerçəkliyini ortadan qaldırmaz.**

Dinin cəmiyyət üzərində təsirləri olduğu kimi, cəmiyyətin də din üzərində təsirlərinin olması normaldır. Din duyğusu insanlıq təbiətində var olan bir duyğudur. Bu mənada din və inanc, insanı insan edən xüsusiyyətdir. Onu insan həyatından çıxarmaq mümkün deyil. Dinlər tarixi sahəsində aparılan araşdırmalar, az da olsa tanrı inancı olmayan insanlara rast gəlməsinə baxmayaraq, hər cəmiyyətin bir dinə sahib olduğunu ortaya qoymuşdur. Tarixin müəyyən dövrlərində dinin gərəksiz olduğunu, insanların onsuz da yaşaya biləcəklərini müdafiə edən və dinin yerinə elmi qoymaq istəyən insanlar olmuşdur. Lakin buna müvəffəq ola bilməmişlər. Bu gün dünya əhalisinin çox böyük bir qisminin bir dinə sahib olması bunu açıq bir şəkildə ortaya qoymaqdadır.

Yaşadığımız dövr, elm və texnikanın son bir neçə əsr içərisində başgicəlləndirici inkişafı və onların gətirdiyi müasir mədəniyyətin gərəkləri qarşısında köklü dəyişmələrə səhnə olmaqdadır. Xüsusilə keçid dövrü yaşayan cəmiyyətlərin alışılmış həyat tərzləri elmi və texnoloji inkişaflar, sənayeləşmə, şəhərləşmə, təhsil-tədris və kütləvi informasiya vasitələrinin yayılması kimi bir çox proseslərin dinamikliyi altında sarsılır və yeni şəkillərə bürünür. Psixoloji və ictimai həyatın mərkəzində yer alan dinin bu inkişaflardan təsirlənməməsi də mümkün deyildir.

Cəmiyyətin dəyişimində çox əhəmiyyətli bir yerə sahib olan din faktoru sahib olunan iman və əxlaqi dəyərlərin təməlini meydana gətirib hüzura, barışa və inkişafa qapı aça bildiyi qədər, bəzən də ictimai dəyişimi və inkişafı yavaşladıb, qarşıdurmaların dinamikliyini meydana gətirən bir faktor da ola bilər. Bu istiqamətdən son olaraq insan – din və cəmiyyət əlaqəsində dinin, insan və cəmiyyət gerçəyinə uyğun olaraq həyatın bütün istiqamətlərini tövhidi bir bütünlük içərisində əhatə edə biləcək, tarazlıqları qura biləcək, inkişaflara işıq tutaraq mesajları ilə bütün insanlığı qucaqlayacaq mahiyyətdə olması və belə bir dinin doğru qəbul edilməsi əhəmiyyət ifadə etməkdədir.

Dinin fitri və universal olması, onun qaynağını da gündəmə gətirməkdədir. Çünki insanı yaradan, eyni zamanda onun fitrətini də ən yaxşı biləndir. O halda fitrətə uyğun bir dinin təməl əsasları və kökü etibarı ilə insanlığın tarixi ilə yaşıd olması lazım gələcəyini də düşünə bilərik.

Din, insan həyatında əhəmiyyətli yerə malikdir. İnsanlıq tarixi qədər köhnə olan din, ilahi vəhy yoluyla gəldiyinə inanılan, insanı xoşbəxt etməyi hədəf alan ictimai bir təşkilatdır. Din, hədəfinə çatmaq üçün insanla insan, insanla kainat və insanla Allah arasındakı əlaqələri nizama salan qanunlar gətirmişdir. Beləcə insanın həm maddi (bədəni), həm də mənəvi (ruhi, zehni və ürək) ehtiyaclarını aradan qaldırmaq istəmişdir.

**Din, insanı düşüncə baxımından yetkinləşdirməyi, davranışlarında ölçülü olmağı hədəf alar. "Allah ölümü və həyatı, hansınızın daha gözəl davranışlarda olacağını sınamaq üçün yaratdı" (Mülk surəsi, ayə 2) ayəsi, dinin məqsədinin insanı əxlaqi yetkinliyə çatdırmaq olduğunu göstərməkdədir. Bu mənada din, insanın insan olduğunun fərqində olmasına, insanlığının tələb etdiyi məsuliyyəti daşımasına, yaradılışına uyğun dəyərlərə sahib, ağlını və digər qabiliyyətlərini ən yaxşı şəkildə istifadə edə bilməsinə, həyatını bilərək yaşayan bütöv şəxsiyyət olmasına köməkçi olar.**



## ABŞ-DA SƏS-KÜYLÜ PREZİDENTLİK DÖNƏMİ BAŞLAYIR

Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

**ABŞ-da son prezident seçkiləri onun müasir siyasi tarixində ən səs-küylü hadisə kimi yadda qaldı. Məğlubiyyətlə barışmaq istəməyən demokratlar seşkilərə "russayağı" hiylənin qarışdığını israr edirlər. Ağ Evdə son günlərini yaşayan Obama seçki kompaniyası zamanı "Demokratlar partiyası" rəsmi saytlarının rus hakerləri tərəfindən kiberhücuma məruz qaldığını vurğulamaqdadır. O, Trampa qarşı yetərli sayda kompromatların olduğunu rəsmi şəkildə bəyan edərək Rusiyanı ittiham etməkdədir. 35 rus diplomatının ABŞ-dan deportasiya edilməsi Obamanın Rusiyaya qarşı nə dərəcədə "qəzəbili" olduğunun göstəricisidir. Cavab reaksiyası kimi rus üst dairələrinin amerikan diplomatik korpusunun əməkdaşlarına qarşı adekvat tədbir görmələrinə Putinin etiraz etməsi okeanın o tayından gələn suçları Kremlin dolayi yolla qəbul etməsi anlamına gəlir. Rus hakerlərinin seçkilərə müdaxilə etməsini absurd adlandıran seçilmiş prezident əks həmlə ilə Obama administrasiyasını ABŞ-ın təhlükəsizlik sistemini yetərincə təmin edə bilməməsi ilə qarşılıq verir. Trampa görə, amerikan elektron sistemi təkçə rusların yox, eyni zamanda çinlilərin də kiberhücumundan sığortalanmayıb. Hər halda, ittihamlara baxmayaraq, 20 yanvarda Ağ Ev prezident Trampı qəbul etməyə hazırlaşır.**

Bir çox ekspertlər Tramp dönəmində ABŞ-ın Rusiya münasibətlərində istiləşmə yaşanacağını ehtimal edirdilər. Hətta, Putinlə yaxın münasibətləri olan və 2013-cü ildə Rusiya prezidenti tərəfindən "Dostluq ordeni" ilə təltif edilən Reks Tillersonun ABŞ dölət katibi vəzifəsinə gətiriləcəyi deyilənlərə nikbin yanaşmaq üçün əsas verirdi. Lakin, məhz həmin Tillersonnun ABŞ senatında son çıxışı zamanı etdiyi bəyanatlar ehtimalların əksini sübut etdi. Belə ki, Tillerson Rusiyanın etdiyi "hərəkət"lərə görə cavab verəcəyini və Kremlin artıq ABŞ-ın maraqlarını "çeynəməyə" başladığnı vurğulamışdır. ABŞ Dövlət Katibi potsuna namizədin Krımın işğal edilməsinə eyham vuraraq, Rusyanın yeni ərazilər qəsb etməsinə yol verməyəcəklərini söyləməsi "soyuq savaşın" davam edəcəyinə işarədir. Çünki, Rusiyanın beynəlxalq arenada hörmət və təsir mexanizmlərinə yenidən yiyələnməsi ABŞ-ın xarici siyasət doktrinası ilə tərs müntənasiblik təşkil edir. Lakin, nəzərə almaq lazımdır ki, Tillersonun sözügedən posta təsdiq olunması üçün ABŞ-ın Rusiyaya qarşı yürütdüyü ənənəvi siyasətin tərkib normalarından kənaraçıxma hallarına yol verməsi onun namizədliyinin geri çevirilməsi anlamına gəlir.

**Rusiya-ABŞ münasibətlərinin gələcəkdə hansı müstəvidə şəkillənəcəyinə dair suallara Trampın özünün cavabı daha əhəmiyyətlidir. Onun Moskva ilə Hillari Klintonla müqayisədə daha sərt diplomatik dildə danışacağnı bildirməsi iki hegomon dövlət arasında münasibətlərdəki soyuqluğun davam edəcəyinə işarədir. Əslində, uzun illər rus siyasətinin əksinə köklənmiş ABŞ prezidentlik institutu Ağ Evə kimin sahiblənməsindən aslı olmayaraq, xarici siyasətdə ssenarisi bir neçə onillik sonraya hesablanmış stabil kurs yürütməkdədir. Əgər Tramp hələ namizəd olarkən Moskva ilə münasibətlərin normalaşmasının vacibliyini vurğulayırdısa, sonuncu çıxışında onun hakimiyyətdə olduğu müddətə "Rusiaya ABŞ-a daha çox hörmət edəcəkdir" deməsi Kremlə bir mesajdır. Odur ki, Tramp prezidentliyi dönəmində "kənaraçıxma" hallarına yol verərsə, onu Riçard Niksonun aqibəti gözləyə bilər. Yəni, Trampın triumfu acı impiçment sonluğu ilə də sonuclana bilər. Bəzən nitqi rasional məntiqdən daha çox emosional-psixoloji çalarlarla zəngin olan Trampın öz xarizmasında çatlar yaratmayacağını söyləmək çətindir. Şübhəsiz ki, belə bir ehtimal ABŞ-ın imicinə vurula biləcək ən ağır zərbə olardı. Odur ki, amerikaliları və dünya ictimayyətini sürprizlərlə bol olan bir Tramp prezidentliyi dönəmi gözləyir.**

## BMT-NİN YENİ BAŞ KATBİ VƏZİFƏSİNİN İCRASINA BAŞLADI

BMT-nin doqquzuncu Baş Katibi Antonio Quterriş 2017-ci il yanvarın 1-dən vəzifəsinə başlayıb.

BMT-nin Baş Katibi postuna seçilənədək A. Quterriş 2005-ci ilin iyunundan 2015-ci ilin dekabrınadək Birləşmiş Millətlər Təşkilatının qaçqınların işi üzrə ali komissarı vəzifəsini tuturdu. Quterriş 20 ildən artıq dövlət və hökumət xidmətində olub. 1995-2002-ci illərdə Portuqaliyanın baş naziri vəzifəsində olarkən o, Şərqi Timorda böhranın tənzimlənməsi istiqamətində beynəlxalq səviyyədə fəal iştirakçılardan biri olmuşdur. 1976-cı ildə Portuqaliya parlamentinə seçilən Antonio Quterriş 17 il parlamentari kimi fəaliyyət göstərmişdir.

Xatırladaq ki, Quterriş 1949-cu ildə Lissabonda anadan olub və "Mühəndislik işi" ixtisası üzrə Ali Texniki İnstitutdan məzun olub. BMT-nin yeni Baş Katibi portuqal, ingilis, ispan və fransız dillərini sərbəst bilir.

## ƏRDOĞAN 2016-CI İLİN ADAMI SEÇİLDİ



Rəcəb Tayyib Ərdoğan ilin adamı seçilib.

Qətərin əl-Cəzirə telekanalının keçirdiyi "2016-cı ilin adamı" sorğusunun qalibi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan olub. Feysbuk üzərindən keçirilən sorğuda ilk olaraq 10 namizədin adı irəli sürülüb. Növbəti mərhələyə 4 namizəd yüksəlib.

İkinci mərhələdə suriyalı uşaqlar adından Ümran körpə, tunisli təyyarə mühəndisi Məhəmməd əz-Zəvari, Mərakeşin Baş naziri Abdullah Benkiran və Türkiyə lideri Ərdoğan yarışıb.

Yayılan xəbərdə teleşirkətin keçirdiyi sorğuya 130 mindən çox adam qatıldığı bildirilib. Sorğu anketində səslərin çoxunu Rəcəb Tayyib Ərdoğan toplayıb və ilin adamı titulunu qazanıb.

## BMT ESTONİYA, LATVİYA VƏ LİTVAYA ŞİMALİ AVROPA ÖLKƏLƏRİ STATUSU VERDİ

Birləşmiş Millətlər Təşkilatı rəsmi şəkildə Baltikyanı ölkələrin – Estoniya, Latviya və Litvanın statusunu Şərqi Avropa ölkələrindən Şimali Avropa ölkələrinə dəyişib.

Estoniya, Latviya və Litva BMT-nin saytında Şimali Avropa ölkələri siyahısındadır. Aland adaları, Danimarka, Farer adaları, Finlandiya, Qernsi adası, İslandiya, İrlandiya, Men adası, Cersi adası, Norveç, Sark adası, Şpitsberqen və Yan-Mayen adası, İsveç, Böyük Britaniya və Şimali İrlandiya bu kateqoriyaya aid edilir.

Şərqi Avropa ölkələrinə isə hazırda Belarus, Bolqarıstan, Çexiya, Polşa, Moldova, Rumıniya, Rusiya və Ukrayna aiddir.

Dəyişiklik Avropanın digər regionlarına da təsir edib. Albaniya, Serbiya, Bosniya, Çernoqoriya, Makedoniya, Xorvatiya və Sloveniya bundan sonra Cənubi Avropa ölkələri qrupuna aid ediləcək.

## QƏRB ÖLKƏLƏRİ ÜÇÜNCÜ DÜNYA MÜHARƏBİSİ TƏHLÜKƏSİNDƏN EHTİYAT EDİRLƏR

Qərb ölkələri sakinlərinin əksəriyyəti yaxın gələcəkdə üçüncü dünya müharibəsinin başlayacağından ciddi şəkildə narahatdırlar. Britaniyanın YouGov sosioloji şirkətinin keçirdiyi sorğunun nəticələrinə görə, ABŞ-ın rəyi soruşulan vətəndaşlarının 64%-i hərbi münaqişənin qaçılmaz olduğunu güman edib, 15%-i isə sülhün tənzimlənməsinə ümid etdiyini bildirib. Eyni mənzərə Böyük Britaniyada da müşahidə olunur. Burada rəyi soruşulanların 61%-i üçüncü dünya müharibəsinin olacağını proqnozlaşdırıb, 19% isə bu fikrin əksini bildirib. Məlumatı kommersant.ru yayıb.

Böyük Britaniya sakinlərinin 71%-i və ABŞ vətəndaşlarının 59%-i dünyanın təhlükəsizliyi üçün əsas qorxu kimi Rusiyanın adını çəkib. İsveçlilərin və norveçlilərin 68%-i, finlərin və danimarkalıların 67%-i, almanların 65%-i, fransızların isə 61%-i Rusiyanın hərbi qüdrətinin artmasından narahat olduqlarını bildiriblər. Fransa sakinlərinin 81%-i isə beynəlxalq terrorizmi əsas təhlükə mənbəyi hesab ediblər.

Xatırladaq ki, üçüncü dünya müharibəsinin başlaması narahatlığı rusiyalılar arasında da kifayət qədər güclüdür. Rusiaya əhalisinin 48%-i Suriya ucbatından Qərblə münasibətlərin kəskinləşməsinin tammiqyaslı hərbi münaqişə yarada biləcəyini güman edir.

## TACİKİSTAN PREZİDENTİ OĞLUNU PAYTAXT MERİ TƏYİN EDİB

Tacikistan prezidenti İmaməli Rəhman böyük oğlu Rüstəmini Düşənbə meri təyin edib.

1998-ci ildən mer funksiyalarını icra edən Məhməsəid Ubaydullayev isə Tacikistan parlamentinin üst palatasının sədri təyin olunub.

Rüstəmi Rəhman paytaxt meri təyin olunana qədər Tacikistanın Korrupsiya ilə Mübarizə Milli Agentliyinin sədri idi.



## SİQARET ÇƏKMƏK HƏR İL DÜNYA İQTİSADİYYATINA BİR TRİLYON DOLLARA BAŞA GƏLİR

Siqaret çəkmək hər il dünya iqtisadiyyatına 1 trilyon dollara başa gəlir. Bu məbləğə səhiyyə xərcləri və məhsuldarlığın itirilməsi də daxildir. Belə bir fikri Beynəlxalq Səhiyyə Təşkilatı və ABŞ-ın Milli Onkologiya institutu vurğulayıb.

Bundan başqa, araşdırıcılar 2030-cu ilə qədər tütündən istifadə edənlər arasında ölüm sayının artacağını da qeyd ediblər. "Tütündən istifadədən ölənlərin sayının 2030-cu ilə doğru hər il 6 milyondan 8 milyonadək artacağı gözlənilir. Bununla belə bu ölümlərin 80%-dən çoxu az və orta gəlir səviyyəli ölkələrdə qeydə alınacaq" – məruzədə vurğulanır.

Araşdırıcılar dövlətlərin əhali arasında tütündən istifadənin azaldılması üçün hər cür imkanlara malik olduqlarını, lakin son zamanlar bu sahədə onların fəallıq göstərmədiklərini də vurğulayıblar.

## SÜRÜCÜLƏRİN BALLARI HANSI QAYDA POZUNTULARINA GÖRƏ AZALDILIR?

*news.coa portalı sürücülük vəsiqəsinin 100 ballıq sisteminin qüvvəyə minməsi haqqında məlumat yayıb. Qəsdən içkili vəziyyətdə nəqliyyat vasitəsi idarə edən sürücülərdən 20 bal silinəcək; qeyd edilən əməlin bir il ərzində yenidən törədilməsi zamanı 30 bal silinəcək.*

**Narkotik və ya psixotrop maddələrin təsiri altında avtomobil idarə edən şəxslərin 30 balı azaldılacaq.**

Yol üçün yararlılıq imtahanını ( nəqliyyat vasitəsinin məcburi dövrü testi) keçməyən nəqliyyat vasitəsinin idarə edilməsi və ya belə avtomobilin sahibi tərəfindən başqasına verilməsi 15 balla cəzalandırılacaq.

Sürücünün və ya onun yanında oturan şəxsin kəmərdən istifadə etməməsi 10 bal; mexaniki nəqliyyat vasitəsinin idarəsi zamanı sürücünün mobil telefondan istifadə etməsi 15 bal; mopet və ya motosikletlə hərəkət zamanı sürücünün və ya onun yanında oturan şəxsin moto dəbilqəsindən istifadə etməməsi 5 bal;

Sürücülük vəsiqəsi, nəqliyyat vasitəsinin qey-




diyyat sənədi, müvəqqəti sürücülük icazə sənədi olmayan şəxsin idarə etməsi 5 bal;

Düzgün əyləc sistemi olmayan, düzgün sükan idarə mexanizmi və alt qurğusu olmayan, işıqları, gecə üçün arxa işıqları sıradan çıxan, şüşə təmizləmə mexanizmi və ya mühərrik sisteminin germetikliyi pozulmuş avtomobil sürməyə görə 5 bal;

Emissiyalarında çirkli maddələrin normadan artıq olması 15 bal;

Öz istəyinə uyğun yenidən düzəldilmiş avtomobilin idarəsi 15 bal;

Müvafiq kateqoriyaya aid sürücülük vəsiqəsi olmadan avtomobil idarəsi üçün 15 bal;

Tünd şüşəli və ya işıq keçiriciliyi Gürcüstan Daxili İşlər Nazirliyinin müəyyən etdiyi qaydaya uyğun olmayan şüşəli avtomobilin idarəsi 5 bal; qeyd edilən əməlin bir il ərzində yenidən törədilməsi zamanı 10, bir il ərzində üçüncü və hər sonrakı dəfə üçün isə 15 bal;

Nəqliyyat vasitələrinin istismarı qaydasının pozulması, bu əməlin başqa nəqliyyat vasitəsinə, yola, hər hansı binaya və ya insana yüngül zərər verməsi 20 bal;

Nəqliyyat vasitəsinə xüsusi səsli siqnal yerləşdirilməsi, yüksək səsli meqafon, xüsusi nəqliyyat vasitələri üçün müəyyən edilmiş rəng istifadəsi 15 bal; qeyd edilən əməlin bir il ərzində yenidən törədilməsi zamanı 20 bal;

Xüsusi siqnallı (məsələn eskort, cənazə) maşınlara maneə törətmək 15 bal; təcili yardım, yanğınsöndürən və polisə maneə 20 bal; bu əməlin başqa nəqliyyat vasitəsinə, yola, hər hansı binaya və ya insana yüngül zərər verməsi 40 bal;

Nəqliyyat vasitəsinin yetkinlik yaşına çatmamış və ya sürücülük vəsiqəsi olmayan şəxsə verilməsi, 15 bal; bu əməlin başqa nəqliyyat vasitəsinə, yola, hər hansı binaya və ya insana yüngül zərər verməsi 25 bal; bir il ərzində təkrar törədilməsi 30 bal;

„B" kateqoriyalı və „A1" „B1" altkateqoriyalı nəqliyyat vasitələrini idarə etmək hüququ olan 18 yaşına çatmamış şəxsin gəlir əldə etmək məqsədi ilə sərnişin daşıması və ya əmək əlaqələri əsasında sürücü kimi işləməsi 20 bal;

Dövlət nömrə nişanı olmayan maşının idarəsi 10 bal;

Müəyyən edilmiş qaydada qeydiyyatdan keçməyən maşının idarəsi 20 bal;

Başqasının nömrəsi və ya bağlı nömrə ilə maşının idarəsi 40 bal;

Yol nəqliyyat hadisəsində iştirak edən sürücünün qaçması və ya hadisə yerindən uzaqlaşması (qanunla müəyyən edilmiş hallardan başqa) 15 bal; yol polisinin dur əmrinə tabe olmama 25 bal; bu əməlin yol qəzasına və ya nəqliyyatın ləngiməsinə səbəb olması 35 bal;

Sürücünün artıq sürətdən istifadə etməsi (normadan 15 km/saat artıq); bu əməli yerli şəhər, şəhərlərarası və beynəlxalq sərnişin daşıyan şəxsin törətməsi 20 bal;

Sürücünün artıq sürətdən istifadə etməsi (normadan 15km/saat artıq) və qəza vəziyyətinə, nəqliyyatın hərəkətinə maneyəyə səbəb olması 25 bal; bu əməlin başqa nəqliyyat vasitəsinə, yola, hər hansı binaya və ya insana yüngül zərər verməsi 40 bal;

Piyadalara qarşı qayda pozulması 5 bal; eyni əməlin bir il ərzində təkrar törədilməsi 10 bal; sürücü tərəfindən nəqliyyatın hərəkətinə maneə törədən qayda pozuntularının yaranması 5 bal;

Nəqliyyat vasitələri ilə mütəşkkil şəkildə yolun bağlanması və şəhərdə və ya başqa yaşayış bölgəsində qrup hərəkətində iştirak edərək yolun tam bağlanmasına səbəb olmaq 10 bal;

Nəqliyyat vasitələrinin hərəkətə başlama ardıcıllığı və manevr qaydalarının pozulması 10 bal;

Nəqliyyat vasitəsinə tanıtma işarəsinin vurulması qaydasının pozulması 5 bal, tənzimləyici və ya işıqforun qadağan etdiyi işarədə keçid qaydalarının, prioritet və qadağan edən işarə tələbinə əməl etməmək, yolayrıcı, dəmir yolu keçidləri qaydasını pozmaq, keçmə üstünlüyü olan nəqliyyat vasitələrinə maneə yaratmaq 10 bal;

Qarşı nəqliyyat yolunu ayıran orta xətti kəsmək 10 bal; bir il ərzində eyni əməlin təkrar edilməsi 20 bal;

Qarşı nəqliyyat yolunun orta xəttini əks istiqamətdə kəsmək 30 balla cəzalandırılır.

**Təqvim ili ərzində 100 balın sıfıra qədər azalması sürücülük hüququndan məhrum olmaya gətirib çıxarır və şəxs yenidən imtahan verməli olur.**

Hazırladı: Elsevər ELDAROĞLU

## FEVRALDA QRİPİN İKİNCİ DALĞASI GÖZLƏNİLİR

Fevralda Gürcüstanda virusla bağlı xəstəliklərin artması gözlənilsə də, o, dekabr ayının göstəricilərini keçməyəcək. Bu barədə xəstəliklərə nəzarət və ictimai sağlamlıq Milli Mərkəzinin direktor müavini Paata İmnadze məlumat verib.

O, epidemiya yaranması təhlükəsinin olmadığını bildirib.

İmnadze qış mövsümü üçün tipik olan virusların qeydə alındığını vurğulayıb. Tez-tez bütün ailə üzvlərinin qripə yoluxması hallarına rast gəlinir, ona görə də doğmaları və yaxınları yoluxdurmamaq üçün tənzif sarğıdan istifadə etmək gərəkdir. Qripin hətta ən xırda simptomlarını hiss edərkən də evdən çıxmamağı məsləhət görürlər.

Mövsümi qripin A, B və C tipləri mövcuddur. A virusu həm insanlara, həm də heyvanlara yoluxur və epidemiya xarakteri daşıyır. B tipli virus insandan insana keçir, ağır epidemiya xarakteri daşımır, lokal xarakterlidir.

C tipli virus az öyrənilib. O da yalnız insandan insana keçir, lakin ağır simptomlar yaratmır. Bəzi hallarda isə, ümumiyyətlə, heç bir əlamət daşımır.

## EPİKÜR BAĞLARI (vegetasiya)

İBRAHİMXƏLİL



**"Mənim Bağdad bağlarım"da da demişdim: kəndimizin hazırda izi-tozu da qalmayan üzüm və alma bağlarından xeyli əvvəl rəhmətlik anamın danışdığı bağa – padşahın bağına vurulmuşdum. Xatırladıram: "Padşahın bağında bir alma ağacı var idi. Bu ağac birinci gün çiçək açar, ikinci gün çiçəyini tökər, üçüncü gün bar verərdi. Bu sehirli almadan hər kəs yesə, on beş yaşında oğlan olardı".**

Elə ki, bu yaxınlarda Hələb bağlarının birində bombardmandan sağ çıxmış (dəmir-beton sığınacaqdakılar xilas ola bilməmişdilər) on beş yaşlı oğlanı göstərdilər, dərhal bağlamağa yarayan hər şeysiz: ipsiz, kəndirsiz, qaytansız-qayışsız bağlandığım, görmədiyim və gördüyüm neçə-neçə bürhan-büsat bağlar yadıma düşdü: müstəbid Nəmrud şahın İbrahim peyğəmbəri kürəyə atdırarkən od-alovun sönüb çevrildiyi güllü-çiçəkli İbrahim bağı, dünyanın yeddi möcüzəsindən biri hesab olunan qədim Babilistanın asma bağları, Əflatun (Platon) başda olmaqla dünyanın ilk akademiklərinin güzərgahı olan "Akademiya" bağı, Firdovsinin əfsanəvi "Arami-dil" bağı, Tiraspol, Bağçasaray və Təbriz bağları, nəhayət, bağlar bağı Gülüstani-İrəm – cənnət bağı...

Təbii ki, bombardmandan bağda xilas olan əmanət ərəb balasının indi haralarda olduğunu bilmirəm. Amma çox istərdim ki, böyüyəndə filosof olsun. Necə ki, Platon demiş, "filosoflar idarə etməyincə heç bir dövlət bəlalardan və bölünmələrdən yaxa qurtara bilməyəcək", bax, həmin oxşar müntəzir minvalla, bəlkə həmin on beş yaşlı oğlan məmləkətini məhrumiyyətlərdən qurtarardı.

Yeri gəlmişkən, bir zamanlar qədim Yunanıstanda fəlsəfi məktəblərə də "bağ" deyiblər: Pifaqor bağı, Demokrit bağı, Ərəstun (Aristotel) bağı, Epikür bağı...

Müxtəsəri, bu yerdə "Mənim Bağdad bağlarım"da çatdıra bilmədiklərimi deməkləcə kifayətlənəcəyəm: etiraf edirəm, misilləmə misal üçün, qədim Babilistanın asma bağlarından artıq Aristotel, ya da Epikür "bağ"ına bağlıyam. Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın başqa cür mümkün deyil! Əlbəttə, bu o demək deyil ki, guya mən filosofam. Amma bircə sərhesab səbəb var ki, Bağ – yəni fəlsəfə çox şarlatandan, kintodan, cibgirdən, donosbazdan, qafiyəpərdazdan və internet tpolundan... gözəl müdafiə sistemidir; çünki əgər "hava hücumundan müdafiə sistemi"n yoxdursa, səmanda-göyündə yad yellər əsəcək: eynən Hələb – Bağdad arası misallı...

Görünür, şair Qəşəm Nəcəfzadə də əbəs yerə yazmayıb:

Bu bağ evimizdən yaxşıdı...

...Daha çox Bağdad həsrətilə yanan "Vaqifçi"yəm, "Vidadiçi"yəm, təvazökarlıqdan zəifülməzac uzaq da olsa, fəlsəfədə filosof dostlarım Mirzə Qələm və Kamurandan sonra – bəzi tarix, coğrafiya və filologiya üzrə Süsən-Sünbüllü fəlsəfə doktorlarının (yazıq-yavuz fəlsəfə!) "Bağ"dan uzaq zanqazaranqı ilə nə işimiz – mətlə beyt, ya da bədii simvol boyda da olsa "Epikürçü"yəm.

Burasını da deyim ki, Epikür həqiqətin meyarını "düşüncə sıçrayışları"nda görürdü. Bəlkə də o düşüncə sıçrayışları ki, Hələb tərəflərdə hələlik arazbarı az görünür...

P.S.

Unudulmaz H.Sarabski xatirələrində yazırdı: "Axırda həkim nənəmə dedi: – Bir az qanı azdır, göndər getsin bağa".

**İndi, qardaşlar, siz ki Mirzə Həsən ağanın bu qədər yaxın qohumusunuz, zəhmət də olsa, göndərin dəə, onu bağa! Yox-yox, Epikür bağlarını demirəm, Mirzə Halaypozanın badənuş bağını deyirəm. Bəlkə həm düzələrdi, həm də az-az bağçıvanlıq öyrənərdi...**

# LİBERAL DƏYƏRLƏRƏ DAİR DÜŞÜNCƏLƏR



KAMURAN

***Con Lokk insanların təbii haqları haqqında söz açdığı zaman yeni bir şey demirdi, sadəcə bizim görə bilmədiklərimizi bizə göstərməyə çalışırdı. On doqquzuncu əsrə qədər, liberalizm axını yaranmamışdan əvvəl, aydın məsələdir ki, hökm sürən siyasi idarəçiliklər bunlar idi: diktatura, tiraniya, qəsbkarlıq, despotiya. On doqquzuncu əsrdə baş verən və məəttəl qoyucu fakt o idi ki, Con Lokk və tərəfdaşları insanların anadan gəlmə üç təbii haqqa malik olduğunu deyirdilər, həmin o haqlar ki, Con Lokkun dilə gətirməsinə qədər despotlar, qəsbkarlar, tiranlar və diktatorlar həmişə onları ört-basdır eləmişdi, üstəgəl, həmin haqlardan sui-istifadə etmişdilər. Həmin haqlar bunlardır:***

1. Yaşama; 2. Azadlıq; 3. Mülkiyyət. Baxmayaraq ki, bu siyasi prinsip olduqca sadə görünür, çevrilişlərə və böyük üsyanlara səbəb olmuşdu, çünki prinsipdə açıq-aşkar deyilirdi ki, əgər dövlət insan haqlarının tükünə belə toxunsa, vətəndaşlar həlli üsyan yolu ilə əldə edəcəklər. Deməli, belə çıxır ki, prinsipdə açıq-aydın qeyd edilməsə də, üsyan etmək üçün lazım gələcək qədər böyüdülməməli hallarda – azadlığımızmı qısıdlanır, mülkiyyətimizmi tapdalanır, ümumiyyətlə, hər-hansı bir şeyə görə sağlamlığımımı pozulur – o zaman gərək hər şeyin düzəlməsi üçün tər tökəsən və bir şeylər tələb eləyəsən.

Mən heç kəsi tənqid eləmək arzusunda deyiləm, mənim dilə gətirmək istədiyim sadəcə həmin labüd və həyata keçirilməli olan mətləblərdir, hansıları ki, durmadan düşünürük, amma arzumuza doğru heç bir addım atmırıq, halbuki, bəlkə ona bircə addım atsaq o bizə qaça-qaça gələcəkdir. Məlum məsələdir ki, keçmiş nəsil nümayəndələri Sovetlər İttifaqının çökməsindən sonra qaranlıq bir dövrdən keçdilər və bu özünü müəyyən fəsadlarla göstərdi, eləcə də göstərməyə davam edir. Bizdə diktatorluq, tiranlıq, radikallıq, liberallıq və s. bir-birinə qarışıb, amma heç biri tam olaraq həyata keçə bilmir, çünki, mənə elə gəlir, ortalıq çox bulanlıqdır, dəqiqlik problemi yaşayırıq. Rayonlara səfər edərkən müxtəlif və bir o qədər də maraqlı sual-cavablarla rastlaşırıq, məsələn, kənd sakini əgər su kranının olmadığını deyirsə, cavabından elə başa düşürəm ki, guya səs verdiyi kəs hakimiyyətə gələrkən hansısa mistik bir yolla onun şikayətlərindən xəbər tutmalı olacaq. Deputatlarımızın və digər başqa siyasətçilərin adlarını yüz adamdan beş nəfəri ancaq bilir. Kəndə asfalt, su və ya qaz çəkiləsidirsə, "filan-filan şey niyə çəkilmədi?" deyə kinayəli sual verməklə heç nə dəyişməyəcək, ərizə yazma və petisiyaya imza toplamaq qaydaları var, rəsmi müraciət formaları və icra başçılarının, deputatların qəbul günləri var (həftənin birinci günləri); Frensis Bekonun da dediyi kimi – bilmək gücdür!; dövrümüz ağılla silahlanma dövrüdür, çünki müasir zamanda hər şeyin açarı bilməkdir, nə qədər çox bilsən, bir o qədər də güclüsən, deməli, gün kimi şübhə doğurmayan bir şey varsa, o da bilməyin misilsiz gücüdür.

Bilməkdən başqa əməl eləmək və ya həyata keçirmək məziyyəti də var. İnsanlar var hər cümləri "mən bunu bilirəm", "mən demişdim", "məni kimi bu haqda heç kim bilə bilməz" kimi sözlərlə başlayır, amma soruşanda rayonda onlardan daha pis şəraitdə yaşayan heç kim yoxdur. Deməli, bilmək də bəs eləmir, məlumatı lap dərinlərə kökləmək üçün əlini daşın altına salmaq lazımdır; hər halda Avropa ölkələri standartlarında bir ölkə olmağın da öz məziyyətləri var. Ümumiyyətlə, müasir dövlət idarəçiliyində hakimiyyətin səlahiyyətlərinin azaldılması ilə birlikdə (bu əsasən on doqquzuncu əsrdə, liberalizmin yaranması ilə bərabər baş vermişdi ki, insanların təbii haqları hakimiyyət tərəfindən tapdalanmasın) vətəndaşların boynuna çox iş düşməyə başladı, səlahiyyətlər bölgə-bölgə paylandı, hər bölgəyə ayrıca büdcə ayrıldı və müəyyən bölgəyə aid səlahiyyətlər həmin bölgənin insanlarının seçdiyi kəslərə həvalə edildi ki, seçilmiş deputat, icra başçısı və ya icra başçısının kəndlərdəki nümayəndəsi mütəmadi olaraq lokal bölgə ilə maraqlansın, sakinlərlə məsləhətləşsin və fikir mübadiləsinə girərək müxtəlif problemlər haqqında yekun qərara gəlsin; amma, təəssüflər olsun ki, liberal dəyərləri qoruyan bir ölkədə yaşamamıza baxmayaraq, vətəndaşlarımız boynuna düşən işləri nəinki, yerinə yetirmirlər, ümumiyyətlə öz öhdəliklərini öyrənmirlər də; Tiflis şəhəri Avropa dəyərlərini daşıyan və Avropa standartlarına uyan bir şəhərdir, amma, cəmi 30-40 km uzaqlıqdakı rayonlarda və kəndlərdə insanlar ruhən kasıblaşdırılıblar, əksəriyyət hər kəsdən yardım umur, amma özləri öz əməkləri ilə bir şey əldə etməyin tərəfdarı deyillər. İş belə olanda isə dövlət əlil kimi yarımçıq qalır, axsaq olur və ya gözü olur, ağzı olmur.

Nəticədə, söz təhsilə gəlib çıxır. Bir şeyin arzusunda olmaq, ona gedən yolu bilmək və yelkənlərini üfüqlərə, arzulara doğru açıb böyük həyəcanla irəliləmək nəinki, adamı təhsilli qılır (əgər təhsili sertifikat, attestat və ya diplomla ölçməsək), üstəlik, həm də onun hiss etdiyi belə ilahi duyğular çıxdığı yolu müqəddəsləşdirir.

# SÖZ AZADLIĞI

***Niyyətim yenə cəmiyyətimizin çatışmayan cəhətlərindən yola çıxıb , digərləri arasında mövqeyimiz haqqında fikirlərimi sizinlə paylaşmaqdır. Mövzu başlığının bir qədər rəsmi görünməsinə baxmayaraq, düşünürəm ki, yazını oxuduqdan sonra mövzumun yalnız fikir və düşüncə məhsulu olduğunu hiss edəcəksiniz. O cümlədən demokratik dövlətdə yaşadığımıza görə, oxucularımın bir ya çox hissəsinin söz azadlığına malik olma düşüncələrini sonrakı cümlələrimdə yalanladığımın da şahidi olacaqsınız.***

Belə ki, ümumi anlamda, ilk baxışdan hamımızın söz azadlığımız var.

Dilindən, dinindən, şəxsiyyətindən və bunu kimi digər göstəricilərdən asılı olmayaraq digərlərinə toxunmadan, hər kəsin arzu etdiyi sözü demək və fikrini bildirmək hüququ var.

Fikirlərin azad şəkildə ifadə olunmadığı cəmiyyətdə ictimai məsələlərlə bağlı məlumat almaq və fikir sahibi olmaq mümkün deyildir. Söz azadlığının dinc və ya qeyri-dinc yolla məhdudlaşdırılması cəmiyyətin azadlığının itirilməsi deməkdir. Və hər iki halda nəticə təhlükəlidir. Söz azadlığının bəzi hallarda qarşısını almaq mümkün olsa da, sərbəst fikirlərin qadağan olunması mümkün deyil. Düşünürəm ki, azadlığın hər hansı bir faktoru çatışmazsa, azadlıq nəzərdə tutulan kimi olmamaqla yanaşı, şərti funksiya yerinə yetirər. Misal üçün, əgər bir xalqı öz dövlətində baş verən dəyişikliklərdən xəbardar etməsən, ona söz azadlığı verilməsinin də anlamı qalmaz (Bunu deyərkən dövlət işləri timsalında digər mövzuları da nəzərdə tuturam).

Mövzumu daha da aydınlaşdırmaq məqsədi ilə sizə gündəlik həyatda rast gəldiyimiz mövzulardan misal gətirmək və fikrimi çatdırmağı əsas sayaraq cəmiyyətin fikrimdəki 3 qrupunu göstərmək istəyirəm.

Yenə dövlət işləri timsalında digər mövzuları da nəzərdə tutsaq birinci qrup özünün fəal iştirakı ilə seçilərkən, ikinci qrup özünün hadisələrə neytral münasibəti ilə fərqlənəcək və nəticə digərləri kimi onun da həyatında bəzi şeyləri dəyişə bildiyi halda „başını ağrıtmamağı" üstün tutacaq. Və son olaraq, necə deyərlər, bütün varlığı ilə digərlərinin fikirlərinə qulluq edərək, feodalizm dövrünün təsirini üstündən atmadan, sərbəst düşüncə qabiliyyətindən məhrum, yalnız başqalarının fikri vasitəsilə söz azadlığından istifadə edən üçüncü qrup.

Göründüyündən fərqli olaraq, düşünürəm ki, bu üç qrup içində yalnız birinci qrupun söz və fikir azadlığı vardır.

Belə nəticə çıxarmaq olar ki, söz azadlığına malik olan hər kəs fikir azadlığına malik deyildir, yəni cəmiyyətin bir hissəsinin „ söz azadlığı" „ sözdə azadlıq" funksiyasını yerinə yetirərək, işin mahiyyətinini bəsitləşdirir.

Zənnimcə, söz azadlığı məhdudiyyətinin başlıca səbəbi təhsil və dünyagörüşüdür. Bu göstəricilərdən yoxsul olanların bir hissəsi özlərini söz azadlığından məhrum hesab edirlər. Bu kütlənin digər hissəsi, yəni düşüncə yoxsullarının uzun-uzadı söz cəfəngiyatına qadir olan hissəsi birincidən daha təhlükəlidir. Çünki, onlar "söz azadlığı" terminini düzgün başa düşmürlər. Bu halda, bu məsələ " babam mənə kor dedi, gedənə, gələnə vur dedi" məsələsinə daha çox bənzəyir.

Ancaq birinci qrupda da öz məqsədini güdənlər az deyil.



Düşünürəm ki, bir çox hallarda ictiami şəxslər öz haqlarında deyilən sözlərə görə dözümlü olmalıdırlar. Adi adam haqqında şərh bildirmək daha çətin olmalıdır, nəinki tanınmış ictimai-siyasi xadim haqqında. Çünki, onlar müzakirəyə açıqdırlar və buraxdıqları səhvlər görünəndir.

Söz azadlığının ağzına gələni danışıb, xaos yaratmaq olduğunu düşünmürəm.

Söz azadlığında müzakirəyə qoyulan mövzu barədə səhv, ya doğru düşünməsindən asılı olmayaraq, hər kəsin münasibət bildirmək hüququ vardır. Amma, zənnimcə, fikrini səsli ifadə etmək yalnız fikrə diqqət verən cəmiyyət arasında anlamlıdır. Düşüncələrimi nə dərəcədə ifadə edim bilmirəm, amma düşünürəm ki, azadlıq haqqında düşündüklərimizin real həyatda çox az hissəsinə malikik və günümüzdə "söz azadlığı" adətən simvolik funksiya daşıyır.

Anaxanım VÜQAR

# GÜRCÜSTAN MƏKTƏBLƏRİ ÜÇ KATEQORİYAYA BÖLÜNƏCƏK

Yanvarın 6-da təhsil və elm naziri Aleksandr Cecelava artıq sənədi prezidentin təsdiqləməsinə baxmayaraq, ona təhsil haqqında qanunla bağlı izahat verib. Prezident administrasiyasında "Ümumi təhsil haqqında" qanuna edilən dəyişikliklərin hüquq bərabərliyinin pozulması xarakteri daşıdığını düşünürlər.

Gürcüstan prezidenti Georgi Marqvelaşvili "Təhsil haqqında" qanunu yanvarın 5-də imzalasa da, bundan əvvəl onun administrasiyası bu qanunun hüquq bərabərliyinin pozulması anlamına gəldiyini bildirmişdi.

Düzəlişlərə görə, məktəblər üç kateqoriyaya – şagirdləri 200-dək olan, şagirdləri 200-dən artıq olan və aparıcı məktəblərə bölünəcək. Həmçinin məktəblərin brendləşdirilməsi də nəzərdə tutulur. Məhz bu bir neçə məsələ yeni qanunun tənqid olunmasına səbəb olmuşdur. Aparıcı məktəb statusunun hansı meyarlar əsasında veriləcəyi hələlik bəlli deyil.

Müxalifət nümayəndələri və ekspertlər nəzərdə tutlmuş dəyişikliklərə qarşı mənfi münasibət bəsləyirlər. İctimai məktəblərin bir hissəsi olan aparıcı məktəblər üçün statusun müəyyənləşdirilməsi ilin ikinci yarsında nəzərdə tutulur. Nazirlik ümumi təhsilin maliyyələşməsinə aid əlavə təklifləri bir neçə ay sonra təqdim etməyi planlaşdırır. 2017-ci ildə müəllimlərin əməkhaqlarının artırılmayacağı da bəlli olub.

# «ÜMUMİ TƏHSİL HAQQINDA» QANUNA DƏYİŞİKLİKLƏR EDİLDİ

Gürcüstanın Prezidenti Georgi Marqvelaşvili ölkə parlamentinin "Ümumi təhsil haqqında" qanunda həyata keçirdiyi dəyişiklikləri imzalayıb. Prezidentin parlament katibi Anna Dolidze jurnalistlərə prezidentin həyata keçirilən məktəb islahatına tərəfdar olduğunu bildirib.

Anna Dolidze vurğulayıb: "Bu hal ondan ibarətdir ki, bizim vətəndaşlarımız və uşaqlarımız qanun qarşısında bərabərdirlər və keyfiyyətli təhsil bütün ölkə ərazisində hamı üçün əlçatan olmalıdır. Təhsil siyasətinin necə formalaşdırılacağı Təhsil Nazirliyinin və parlamentin səlahiyyətindədir. Bu proseslə əlaqədar olaraq biz diqqəti ona yönəldirik ki, təhsil siyasəti konstitusiya dəyərlərinə tabedir, söhbət bərabərlikdən gedir. ".

O, prezident administrasiyasının "Ümumi təhsil haqqında" qanundna edilən dəyişikliklərin hansı hissəsində diskriminasiya təhlükəsi gördüyünü konkretləşdirməkdən yayınıb.

## CİLOV, TİLOV, QANDAL, BURUNTAQ VƏ BİR SÜRÜ BAŞQA ŞEY

***Dünya insan üçün hər gün, hər an çoxalan, sayı hər keçən saat daha da artan cilovlardan, tilovlardan, qandallardan və bir sürü başqa şeylərdən ibarət çıxılmaz cəngəlliyi xatırlatmaqdadır.***

İnsanlar, yeni bizlər hər gün yüzlərlə şey yaşayır və yaşadırıq. Hər gün minlərlə emosiyanın, hissin əhatəsində qalır və ya müxtəlif qüvvələr tərəfindən buna məcbur edilirik. İnsanı fiziki anlamda yaşadan, böyüdən və ayaqda dayanmasına imkan yaradan qidası, bədən üzvləri və s. kimi maddi şeylərdir. Ruhun ayaqda dura bilməsi və başı dik dolanması üçün isə hisslərin və duyğuların əvəzedilməz amillər olduğunu hər birimiz yaxşı bilirik. O dərəcədə ki, bunların vacibliyi haqqında yazmaq artıq və gərəksiz də sayıla bilər.

İnsanların xoşbəxt olması üçün hər iki adı çəkilənə ehtiyacı var və hətta atalarımız sağlam bədəndə sağlam ruh olacağını da vurğulamaqla, onların vəhdətdə olmasını, bir-birindən kənar mövcud ola bilməyəcəyini nəzərimizə çatdırmışlar. Əslində biz ehtiyacımız olanları əldə etməkdə o qədər də aciz deyilik. Lazım gəlsə özümüzü dağa, daşa, banka, lombarda çırparaq maddi və ya mənəvi istəklərimizi təmin edə bilirik. Diqqət etdiniz ki, ehtiyaclarımızı deyil, istəklərimizi dedim. Siz dəyərlilərim, əsas bəlamızın istəklərimizlə ehtiyaclarımızın uyğunlaşmamasından, onların yerini dəyişik salmamızdan qaynaqlandığı fikrimlə can-başla razı olacaqsınız. Çünki, adını dəyişdirdiyimiz həqiqətlər yaxın gələcəkdə ilan misalı boğazımıza dolanmaq üçün pusquda dayanmış vəziyyətdədir. İndi sizlərdə hansı həqiqətin adı dəyişdirilib deyə sual yarandığını da hiss edirəm. Mən deyim siz barmağınızı qatlayın ( düzdü bu şeyləri eşitməkdən qulaqlarımızdan qut olmuşuq, lakin vəziyyət budur, başqa cəmiyyətin reallığını gətirib misal çəkmək ixtiyarımız da yoxdur): biz israfın adını dəyişdirib "urvat" qoymuşuq. Ölüyə, diriyə, yasa, toya "urvat" adı altında o qədər xərc çəkilir, o qədər israf edilir ki, adam ölməyə də xəcalət çəkir, evlənməyə də... İçindəki vicdan qalxıb adama deyər ki, heç hənanın yeri idimi, ölürsən ya evlənirsən. Heç səndən gözləməzdim... Bəli, larinin ucuz, "urvatın" isə odu bahasına olan vaxtı bu dediklərimizin ikisinin də həyata keçirilməsi olduqca ağır işdir. Əlbəttə ki, bunlar başqalarının yanında dil uzunluğu əldə etməmiz üçün əvəzsizdir. Məsələn, filankəsin qırxında bişən dovğanın noxudundan tutmuş, beşmənkəsin oğlunun toyundakı arağın markasına qədər, hər şey el içində incə əyrilib, sıx toxunacaq və iş sahibi bu noxudun ucbatından ya gərilə-gərilə, ya da ikinci halda qızarabozara gəzəcək. Lakin, az əvvəl də bəhsini etdiyimiz kimi çətinliklərdən və ya problemlərdən yıxılmırıq. Biz şairin də söylədiyi kimi yerimiz səhv düşəndə korşalıb qiyamət olanlardanıq. Özümüzü o qədər lazımsız zadların azarına salmışıq, adam düşünür ki, yox yerdən dərd icad etmək qabiliyyəti də məhz bizə xas olan xüsusiyyətlərdəndir. Ətraf aləmin yüz adda cilovu, qandalı az qala amanımızı qıracaq həddə çatır və unutmamaq məcburiyyətindəyik ki, zaman-zaman biz də ətraf üçün qandala, qanqala çevrilirik. Vəhdət adlandırdığımız burada da ənənəsinə xəyanət etməyərək meydana çıxır. İnsanların bir-birinin işinə burun dürtməsi, bir-biri üçün buruntağa çevrilməsi, eyni zamanda "n" sayda buruntağa asanlıqla burun verməsi də problemlərin qaynağı olmaqla yanaşı, günümüzdə hiss edilməyəcək qədər adi hala çevrilib. Bu, ən çox qəfəslərə salınıb ömürlük həbsə məhkum edilən insanların gerçək duyğularıdır. Yerli-yersiz hikkəmizin həyata keçməsi və içimizdəki düşmən çartlatmaq hissinin qüdrəti olan qol-qanadımızı sındırmaqdan özgə bir şeyə yaramamaqdadır. Bunların mənasızlığı, həyatını başqasının fikirləri əsasında qurmağın məntiqsizliyi hər kəs üçün aşkar məsələ olmalıdır. Bir düşünsək, nə üçün adi zadı belə yaralı barmağımızdan əsirgəyəcək insanların gərəksiz qınağından, tənqidindən qorxaraq yaşamalı və gerçək istəklərimizi, arzularımızı rəndələməliyik? Cavab: - nə bilim qıraqdan baxan nə deyər...

Öz həqiqəti olmayan, tutduğu yolun doğru və haqq olduğuna əmin ola bilməyən insanın "nə bilim qıraqdan baxan nə deyər" prinsipinə dayanaraq yaşaması əslində təəccüb, şübhə doğurmur. Üçüncü şəxsdə danışdığıma isə önəm verməyə dəyməz, çünki bəzən hər birimiz müəyyən zamanlarda həmin insanlardan biri olur, həmin tilovlara düşürük. Cəmiyyət isə pis balıqçı misalı nə tutur, nə buraxır, o yana, bu yana fırladaraq sadəcə ürəyimizin bulanmasına səbəb olur.

Bu qorxulardan nə sevinə bilirik, nə üzülə... Bəzən yersiz danışmaqda rəqib tanımayan biz, yerli danışmaq gərəkəndə ağzımıza su alıb otururuq. Qəribə qanunlarımız var, romanlıq, kitablıq... Gətirəcəyim misalları Allah hamıya gecindən versin, ancaq yenə olanını deyəcəm. Ərini itirən qadının nağıl danışar kimi ağlamasının, filankəsin arvadına yanıq verməsinin bərəkallahla qarşılandığı ellərimizdə, arvadını itirən kişinin gözyaşı tökməsi başı batmışlıq adlandırılır. İgidsən, ərin ölüb qalxıb dastan deməyəsən, ya da vay halına ki, arvadın üçün yaş tökəsən... Sənin möhürün vuruldu, getdi... İnanın inandıqlarınıza ki, sıxıb preslədiyimiz hisslərimiz bir gün partlamağa qərar versə dünyanın ən böyük terror aktı baş verər. İçimizdə bir dünya yıxılar və bəlkə də hər gün dünyada yüzlərlə dünya sırf bu səbəbdən yıxılır.

Yerimizin, duyğularımızın və istəklərimizin səhv düşməməsi ümidiylə sağlıqla qalın...

**P.s. Mən sizə barmağınızı qatlayın demişdim, birini qatladınız ardı gəlmədi, ancaq Bəhlul Danəndə demiş, bir yazıya bir bəla bəsdir...**

Afayət AFİQ

## TEATRIMIZIN ÜMİDLƏRİ BİR DAHA PUÇ OLDU

Anar RAFİQOĞLU



**Öncəliklə qeyd edim ki, 2017-ci ilin yanvar ayından etibarən artıq rəsmi olaraq Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrında aktyor kimi fəaliyyətə başladım. Bu mənim üçün olduqca sevindirici bir yenilik oldu. Sevinirəm, çünki Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrı mənim üçün doğma bir məkandır. Sözügedən teatra ilk dəfə 2010-cu ildə, yəni bundan nə az, nə çox, 7 il əvvəl ayaq basmışdım. O vaxtlar 17 yaşında bir məktəbli idim. Ailəvi dostumuz, rejissor Namiq Hacıyev məndən Nodar Dumbadzenin "Ağ bayraqlar" tamaşasında aktyor olaraq çıxış etməmi istədi. Düzü, o vaxtlar peşəkar olaraq heç bir təcrübəm yox idi deyə, ilk başlarda bir az çəkinirdim. Ancaq teatrda çıxış etməyi uşaqlıqdan bəri xəyal edirdim. Yəni, bu mənim üçün möhtəşəm bir fürsət idi. Və düşünürəm ki, bu fürsəti yaxşı dəyərləndirdim. Çünki bu tamaşadan sonra bir sıra başqa tamaşalarda da çıxış elədim. Daha da önəmlisi, bir çox dəyərli dostlar, istedadlı sənət insanları tanıdım. Uzun sözün qısası, illər əvvəl yeniyetmə bir məktəbli olaraq daxil olduğum teatrın, bu gün peşəkar bir aktyoruna çevrilməm mənim üçün fərqli və xoş bir duyğudur.**

İndi gəlin bütün bu duyğusallığı bir kənara qoyub, işin bir az da reallığına baxaq. Reallıq odur ki, teatrımızın vəziyyəti günü-gündən pisləşir. Bəli, bu haqda artıq bədii rəhbərdən tutmuş, teatrın süpürgəçisinə kimi hamı danışsa da, yazsa da, pozsa da, üsyan etsək də, heç nə dəyişmir ki, dəyişmir. İllərdir teatrın bina problemi, büdcə problemi heç cür həllini tapa bilmir. Bu gün ölkəmizdə etnik azlıqları təmsil edən üç teatr var. Qriboyedov adına Tbilisi Dövlət Rus Dram Teatrı, Tbilisi Dövlət Erməni Dram Teatrı və Tbilisi Dövlət Azərbaycan Dram Teatrı. Bu üç teatr arasında ən az büdcəsi olan teatr məhz bizim teatrdır. Binası yararsız halda olan yeganə teatr da bizim teatrdır. Bu gün teatrmızdakı aktyorların əksəriyyəti 300 lari maaşın ümidinə yaşayır. Və bu insanların ailəsi var. Nəqliyyatın, ərzağın, kommunal xərclərin, ümumiyyətlə, hər şeyin qiymətinin qalxdığı bir ölkədə, sadəcə sənət insanlarının qiyməti qalxmır. Bu gün 300 lari ilə ailə yox, heç tək başına özünü belə dolandıra bilməz insan. Və bir aktyor, ya da istənilən bir insan, əgər ailəsini dolandıra bilmirsə, bir tikə çörəyə möhtac, yarı ac, yarı tox yaşayırsa, o sənətdə, işində necə irəli getsin? İnsan gərək sıxıntı içində yaşamasın ki, bütün enerjisini, var qüvvəsini öz işinə verə bilsin.

Qayıdaq teatr mövzusuna. Bütün bu problemlərə baxmayaraq, teatrın yaradıcı kollektivi işləməyə çalışır. Tbilisi Dövlət Azərbaycan Dram Teatrı 2016-cı ilin son aylarında olduqca aktivləşdi. David Kldiaşvilinin "Darispanın əziyyəti" əsəri əsasında tamaşa hazırlandı və nümayiş olundu. Tamaşanın rejissoru, teatrın eyni zamanda bədii rəhbəri olan Varlam Nikoladze idi. Tbilisi Dövlət Azərbaycan Dram Teatrının aktyorları ilə bərabər türk aktyor Necati Zengin və gürcü aktrisa Laura Rexviaşvili də tamaşada yer aldılar. Qeyd edim ki, tamaşanın premyerasında Gürcüstanın Mədəniyyət Naziri Mixeil Giorqadze da iştirak etmişdi.

Son olaraq, dekabr ayında, 10 il aradan sonra Qiorqi Eristavinin "Sehrli papaq"əsəri yenidən səhnələşdirildi. Tamaşada sizlərin də yaxından tanıdığı, əslən Qardabanidən olan aktyorlar Fazil Bayramov, Binəli İslamoğlu ilə yanaşı, teatrın aktrisaları Leyla Qasımova, Şeyla Cəfərova və Aidə Tağıyeva da iştirak edirdilər.

**Teatrımız 2017-ci ilə aktiv bir şəkildə başlamaq istəyir. Yaxın günlərdə 2-3 tamaşanın hazırlıqlarına başlanacaq. Düzdür, bir az məyusuq. Çünki verilən müəyyən sözlər var idi. Lakin hamısı söz olaraq qaldı. Hətta, yetmirmiş kimi, ölkədə fəaliyyət göstərən bütün dövlət teatrlarının büdcəsi 10 faiz azaldıldı. Yəni, yuxarıda 300 lari alır dediyim aktyorlar, artıq heç 300 lari də ala bilməyəcək. Hətta, bu ildən Gürcüstan Mədəniyyət Nazirliyinin dövlət nəzdində yer alan teatrların fəaliyyətini ciddi bir şəkildə izləyəcəyi, fəaliyyəti yetərsiz görünən teatrların qapanma ehtimalı da olduğu istisna olunmur. Hər nə qədər ümidlərimiz puç olsa da, fəaliyyətimiz bundan sonra daha da gücləndirilməlidir. Bu var olmaq, ya da olmamaq məsələsidir. Buna görə də teatrımıza, mədəniyyətimizə dəstək olmaq üçün növbəti tamaşalarımızda ən azından bu yazını oxuyan hər kəs iştirak etməli və bizləri yalnız qoymamalıdır...**

## JERAR DEPARDYE FANNİ ARDANIN FİLMİNDƏ STALİN ROLUNU CANLANDIRIB

Məşhur fransız aktrisası və kinorejissoru Fanni Ardanın çəkdiyi "Stalinin divanı" (Le divan de Staline) adlı film tamaşaçılara təqdim olunacaq.

Sovet rəhbərinin rolunu məşhur fransız aktyoru Jerar Depardye oynayıb.

"Stalinin divanı" filminin dünya premyerası yanvarın 11-də keçirilib.

Film müasir fransız yazıçısı Jan-Daniel Baltassatın 2013-cü ildə nəşr edilmiş eyniadlı romanı əsasında çəkilib. Rejissor mütləq hakimiyyət və incəsənətlə hakimiyyətin münasibətləri haqqında film çəkmək istədiyini bildirib.

Filmdə hadisələr 1950-ci ildə SSRİ-də cərəyan edir. Gənc heykəltaraşa Stalinin heykəlini yaratmaq tapşırılır. Məsul tapşırıq heykəltaraşı DTK-nin izlədiyi obyektə çevirir. Nəticədə o, "xalqların rəhbəri" haqqında düşündüyündən də artıq şeylər öyrənir.

Sovet diktatorunun arvadı Lidiya rolunu filmdə fransız aktrisası Emmanuel Senye canlandırır. Filmdə Pol Ami, Ksavye Mali və Fransua Şatto da rol alıb.

Rusiyanın "Mosfilm" kinostudiyası Ardanın filmi üçün geyim və butaforiya təqdim edib.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 yanvar 2017-cı il
№001 (39)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## AZƏRBAYCANLI MİLYARDER TÜRKİYƏNİ AYAĞA QALDIRDI



Azərbaycanlı milyarder, “Xəzər Lənkəran”ın fəxri prezidenti Mübariz Mənsimov bu gün Türkiyədə əsas müzakirə mövzularından birinə çevrilib. Səbəbi isə restoranların birində yaşanan olay olub. Xəbəri yanvarın 8-də feed.az saytı yayıb.

Belə ki, tanınmış iş adamı restoranda nahar edərkən yoxsul geyimli, halsız bir qadının restorana girdiyini, işçilərin isə onu çıxartdığını görür. İnzibatçıdan nə baş verdiyini soruşur. Müəssisənin işçisi qadının yemək istədiyini, lakin bura zəngin ailələr üçün olduğundan onu qapıdan uzaqlaşdırdığını bildirir. Mənsimovun ona verdiyi cavab isə hər kəsdə maraq qarışıq heyrət doğurur:

“Restoranda oturan hər kəsi çıxar bayıra, onlar burda yemək yeməsələr də, onsuz gedib başqa restoranda yeyəcəklər, o qadın isə yox. O qadını al içəri, süfrəni doldur yeməklərlə, axşamın da ver. Özünə də tapşır, hər gün gəlsin, yeməyini yesin rahat-rahat”.

Azərbaycanlı milyarderin bu hərəkəti hər kəs tərəfindən rəğbətlə qarşılanıb.

## 2016-CI İLƏ DAMĞASINI VURAN FUTBOL KOMANDASI



Kosalar Futbol Komandası 2016-cı ildə 14 idmançısını xarici komandalara tranfer etmiş, həm də öz liqasında qalib gələrək üst liqaya çıxmış və Marneuli tarixində bir ilkə imza atdı.

Baş məşqçi Əhməd İsmayılov Marneuli tarixinə öz adını qızıl hərflərlə yazdırmağı bacardı. O, Kosalar futbol klubunda güclü oyunçular yetişdirərək xarici ölkələrə güclü transferlər etmiş və sevindiricidir ki, heç bir oyunçusu geri qayıtmayıb. Bu Marneulidə bir ilkdir. Bu günə qədər heç bir yerli futbol komandasından xaricə transfer olunmamışdır. Transfer olunan gənclərin hər biri öz məşqçilərinə minnətdar olduqlarını və onun əməyi olmadan bu məqamlara çata bilməyəcəklərini deyirlər. 14 oyunçunun 9-u Türkiyə, 3-ü Azərbaycan və 2-si Ukrayna komandalarına transfer olunub. Transfer olunan oyunçular arasında Sahil Hüseynov 60 000 dollarlıqlıq peşəkar kontrakt imzalayıb. Xarici komandalara transfer olunmuş oyunçular aşağıdakılardır: Sahil Hüseynov (Karsspor futbol komandası), Hakan Bayramov (Karsspor futbol komandası), Mustafa Quliyev (Karsspor futbol komandası), Tural Məmmədov (Bursaspor futbol akademiyası), İlkin Əhmədov (Bursaspor futbol akademiyası), İbrahim Kərəmov (Bursaspor futbol akademiyası), Səbuhi Umudov (Gaziantepspor futbol komandası), Rəşad Quliyev (Trabzonspor futbol akademiyası), Orxan və Məhəmməd qardaşları (Trabzonspor futbol akademiyası), Məmməd Məmmədov (Neftçi futbol məktəbi), Tunar Əfəndiyev (Bakı futbol məktəbi), Malik Ağayev (Labanovski adına Kiyev futbol akademiyası), Sənan ibrahimov (Dinamo Kiyev uşaq-gənclər futbol məktəbi).

Kosalar futbol komandasının tarixə düşəcək bir təşəbbüsü isə bölgələrdə keçirilən turnirdə digər komandaları böyük fərqlə geridə qoyaraq üst liqaya çıxmasıdır. 2004-2005-ci il təvəllüdlü məktəblilər arasında keçirilən Cənubi Osetiya turnirində böyük məharət göstərən Kosalar futbol komandası müsabiqəni birinci yerdə bitirməkdən əlavə, ən çox qol atan komanda və ən çox qol atan oyunçu titullarına da layiq görülüb. Cənubi Osetiya Futbol Federasiyasının bildirdiyinə görə, komandanın bombardiri Kazım Vəliyevə verilən “qızıl butsi” Gürcüstanın futbol tarixində indiyədək heç kəsə verilməmişdir. Vurulan 58 qolun 26-sında Kazim Vəliyevin imzası var.

Araşdırmalara görə, Marneulidə 1948-ci ildən bu yana heç bir komanda keçid turnirində qalib gələrək “Elit” liqaya çıxa bilməmişdir. Və qeyd etmək lazımdır ki, komandanın heç bir sponsoru yoxdur. Baş məşqçi Əhməd İsmayılovun tək problemi Marneulidəki böyük stadionda məşqlərini keçə bilməməsidir. Bu səbəbdən də o, məşqləri mini stadionda keçirmək məcburiyyətində qalır.

Ravil MƏMMƏDOV

## FİFA FUTBOL ÜZRƏ DÜNYA ÇEMPİONATININ FORMATINI DƏYİŞİR

Futbol üzrə 2026-cı il dünya çempionatının final mərhələsində 48 komanda mübarizə aparacaq.

Mundial iştirakçılarının sayının 32-dən 48-ə çatdırılması məqsədəuyğun sayılıb. Həlledici mərhələdə çıxış edən 48 komanda 16 qrupda mübarizə aparacaq. Hər qrupda 3 komanda yer alacaq və ilk 2 yeri tutan komanda növbəti mərhələyə vəsiqə əldə edəcək.

Avropa 16, Afrika 9,5 (bir komanda digər qitədən olan yığma ilə pley-off oyunu keçirəcək), Asiya 8,5, Mərkəzi Amerika və Cənubi Amerika hərəsi 6,5, Okeaniya isə 1 komanda ilə təmsil olunacaq.

Dünya çempionatı öz formatını artıq yeddinci dəfədir dəyişir. 1930-cu ildə birinci dünya çempionatında 13 komandanın, 1938 və 1950-ci illərdə isə 16 komandanın iştirakı ilə çempionat keçirilmişdi.

1954-cü ilin dünya çempionatından 1982-ci ildək iştirakçı komandaların sayı 16 olmuş və 1982-ci ildə komandaların sayı 24-ə çatdırılmışdı. 1998-ci ilin dünya çempionatında artıq 32 komanda oynamış və bu format 2022-ci ilədək saxlanılacaq.

## GÜRCÜ CƏRRAHLAR NADİR ƏMƏLİYYAT APARIBLAR



Gürcü həkimləri nadir əməliyyat apararaq 34 yaşlı kişinin kəsilmiş əlini tikiblər. Bu barədə cərrah Zurab Qoqinaşvili məlumat verib.

Yanvarın 5-də Yüksək Tibbi Texnologiyalar Mərkəzinə (İnqorokva adına universitet klinikası) istehsalat zədəsi ilə sağ əli tamamilə kəsilmiş pasiyent gətirilib. Kəsilmiş əl cərrahlar Zurab Qoqinaşvili və Maya Lobjanidzenin sayəsində uğurla yerinə tikilib.

“Sağ əlin replantasiyası uğurla başa çatdı. Çiyin sümüyünun osteosintezi həyata keçirildi, zərər görmüş qan damarları və əsəblər aşkarlandı, venoz daxil etmənin köməyi ilə çiyinin arteriyası və venalar bərpa olundu, bundan sonra ətrafların qanla təchizatı bərpa olundu” – Qoqinaşvili deyib.

“Əlbəttə, belə əməliyyatlardan sonra müəyyən ağırlaşmalar mümkündür, lakin biz bundan qaçmaq üçün hər şey edirik” – cərrah qeyd edib. Hazırda pasiyent həkimlərin nəzarəti altında reanimasiyada saxlanılır.

## İNNA QUDAVADZE İNGİLTƏRƏNİN VARLI QADINLARI SİYAHISINA DÜŞÜB



Mərhum gürcü oliqarxı Badri Patarkatsişvilinin həyat yoldaşı İnna Qudavadze İngiltərənin ən varlı qadınlarının siyahısına düşüb. . Dərc edilmiş reytinqə İngiltərənin 31 qadın nümayəndəsi daxil edilib.

Nəşr İnna Qudavadzenin varidatını 650 milyon funt sterlinq dəyərində qiymətləndirib.

Ona varidatın doqquz il əvvəl vəfat etmiş ərindən, gürcü milyarderi Badri Patarkatsişvilidən miras qaldığı da qeyd olunur. Onun varidatının daşınmaz əmlak, telekanal, kazino və qızıl mədənlərindən ibarət olduğu bildirilir.

Siyahıya İsveçrənin ən zəngin şəxsinə ərə getmiş müğənni Kirsti Bertarelli başçılıq edir. Onun varidatı 9,780 milyard funt sterlinq dəyərində qiymətləndirilir.

Xatırladaq ki, Badri Patarkatsişvili 2008-ci ildə İngiltərədə vəfat etmişdi. Onun ölümündən sonra mərhum milyarderin ailəsinin həm Gürcüstan hökuməti ilə, həm də keçmiş tərəfdaşları ilə əmlak çəkişmələri başlamışdı.

## VLADİMİR XİNÇEQAŞVİLİ DÜNYANIN ƏN YAXŞI GÜLƏŞÇİSİ OLDU

Gürcü sərbəst güləşçisi, Rio-de-Janeyro Olimpiya oyunlarının qızıl medalçısı Vladimir Xinçeqaşvili yeni mövsümə öz çəki dərəcəsində (-57 kq) dünya reytnqinin lideri kimi başlayıb.

Olimpiya qızıl medalından başqa Xinçeqaşvili 2016-cı ildə Avropa çempionu olub, Gürcüstan millisinin tərkibində Avropa millətlər Kubokunun, Dünya klubları çempionatının qalibi olub.

Qeyd etmək lazımdır ki, cari ilin yanvarında Xinçeqaşvili növbəti qələbələrini qazanıb. Hindistanda start götürən Pro Wrestling League turnirində “Pəncab Royals” klubunun şərəfini qoruyan Xinçeqaşvili iki qarşılaşmadan qalib kimi ayırılıb.

## QEYRİ-ADİ MÜHƏNDİS İŞİ MEYDANA ÇIXDI



Müasir mühəndislərin və arxitektorların qarşısında yalnız bir məsələ durur: yolda itirilən vaxta qənaət etmək. Daha doğrusu mütəxəssislər vaxta və məsafəyə qənaət etməklə sürücülərin rahat hərəkət etmələri üçün şərait yaratmağa çalışırlar. Mühəndis düşüncəsinin məhsullarından biri də Øresund link körpüsüdür. Bu qurğunun qeyri-adiliyi ondadır ki, o, özündə 8 kilometr uzunluğunda körpünü, 4 kilometr uzunluğunda yeraltı tuneli və süni adanı birləşdirir.

Danimarkalı arxitektor George K. S. Rothe qeyri-adi layihə hazırlayıb. Adıçəkilən körpü Kopenhagen şəhərini İsveçin Malme şəhəri ilə birləşdirir.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Afiq Muxtaroğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 595 92 25 70
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.